# O bir ömür yaşayır...





O bir ömür yaşayır. Elə bir ömür ki, bu ömürdə hər şey var. İnsanlıq, ziyalılıq, peşəkarlıq, mehribanlıq, səmimiyyət, dostluq, sədaqət və adını çəkmədiyimiz bu kimi ən müsbət keyfiyyətlər. Haqqında söhbət açacağımız şəxs bu günlərdə ömrünün 65-ci baharını yaşayan, nə az, nə çox 40 ildən artıq Təhsil Nazirliyində müxtəlif məsul vəzifələrdə çalışmış, hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində rektorun maliyyə və iqtisadiyyat məsələləri üzrə müşaviri, "Tərəqqi" medallı Fərhad Əli oğlu Əliyevdir. Fərhad Əliyev 1951-ci il dekabrın 3-də Bərdə rayonunun Alpoud kəndində anadan olub. 1972-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. Əmək fəaliyyətinə 1972-ci ilin avqust ayının 1-dən Respublika Toxumçuluq Birliyində iqtisadçı kimi başlayıb. 1972-1973-cü illərdə Moskva şəhərində hərbi xidmətdə olub. 1974-cü ildən Təhsil Nazirliyində əmək fəaliyyətini davam etdirən F.Əliyev 1982-ci ilin iyul ayına kimi Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili Nazirliyinin mərkəzi aparatının Plan-Maliyyə şöbəsində böyük, aparıcı və baş iqtisadçı vəzifələrində işləyib. 1982-88-ci illərdə nazirliyin Təftiş və Nəzarət şöbəsinin rəisi vəzifəsində, 1988-93-cü illərdə Mühasibat uçotu, Hesabat və Nəzarət idarəsində aparıcı iqtisadçı, idarə rəisinin müavini və 1993-cü ildən 2015-ci ilin dekabr ayına kimi isə Təhsil Nazirliyinin İqtisadiyyat şöbəsinin Mühasibat uçotu və hesabat sektorunun müdiri vəzifəsində çalışıb. 2016-cı ilin yanvarından Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində rektorun maliyyə və iqtisadi məsələlər üzrə müşaviri vəzifəsinə təyin edilib.

Daim axtarışda olan F.Əliyev əmək fəaliyyəti dövründə də təhsilini davam etdirib. O, 1978-1980-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Komitəsinin Marksizm-Leninizm Universitetinin İdeoloji Kadrlar fakültəsinin İqtisadiyyat şöbəsini fərqlənmə diplomu ilə bitirib. Bundan başqa, 1990-cı ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin nəzdində Azərbaycan Xalq Təsərrüfatının İdarəetmə İnstitutunda "Müasir idarəetmə üsulları, istehsalın təşkili və planlaşdırılması" ixtisası üzrə də təhsil alıb.

Bir çox beynəlxalq tədbirlərin iştirakçısıdır. O, Moskvada keçirilən Mühasiblərin və Auditorların I və II Qurultayının və ABŞ-ın Nyu-York şəhərində yerləşən Beynəlxalq Daxili Auditorlar İnstitutunun üzvüdür. F.Əliyev 1998-ci ildə MDB dövlətləri üzrə yaradılmış "Sodrujestvo" mühasiblər və Auditorlar Assosiasiyasına da üzv seçilib.

Fəaliyyəti dövründə ictimai işlərdə də yaxından iştirak edən Fərhad müəllim Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müvafiq əmri ilə yaradılmış "Mühasibat uçotu və hesabat üzrə metodoloji Şura"nın tərkibinə daxil edilmişdir. O həm də daxili auditorların "Audit Azərbaycan" İnstitutunun idarə heyətinin 2011-ci ilin iyun ayında keçirilən iclasında bu institutun idarəetmə nəzarət və fəaliyyət orqanlarının yeni tərkibində ictimai əsaslarla İntizam komitəsinin sədri vəzifəsinə təsdiq olunmuşdur.

F.Əliyev 1984-2015-ci illər ərzində respublikanın müxtəlif qəzet, jurnallarında, eləcə də Maliyyə Nazirliyinin elmi-praktik jurnalı olan "Maliyyə və uçot" jurnalında dərc edilmiş 40-dan çox elmi-praktik məqalə və tezisin müəllifidir. Fərhad müəllim abituriyentlərə kömək üçün nəzərdə tutulmuş "Hansı peşəni seçməli", "Oxumağa hara getməli" məlumat kitablarının da müəllifidir. Onun "Maliyyə və uçot" jurnalında dərc edilmiş bir sıra məqaləsi praktik əhəmiyyətinə və aktuallığına görə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin "Prezident kitabxanası"nda saxlanılan məqalələrin siyahısına daxil edilmişdir. Fərhad müəllim haqqında dövri mətbuatda bir çox yazılar dərc olunmuşdur. Bu günlərdə onun haqqında Nazim Məmmədbəyovun müəllifi olduğu "Böyük bir həyatın ömrü" adlı poema kitab şəklində çapdan çıxmışdır.

Fərhad Əliyev Təhsil Nazirliyində uzunmüddətli əmək fəaliyyəti ilə bağlı müxtəlif dövrlərdə rəhbərliyin Fəxri fərmanları ilə təltif edilmişdir. 2011-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülmüşdür. Təhsil Nazirliyində işlədiyi müddətdə daim rəhbərliyin diqqət və qayğısını öz üzərində hiss edən Fərhad müəllim, bu isti münasibəti bu gün çalışdığı Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəhbərliyindən də görür.

Bu günlərdə 65 yaşını tamamlayan Fərhad müəllimi yubiley münasibətilə təbrik edir, şərəfli ömür yolunda ona cansağlığı və uğurlar arzulayırıq.

## Fərhad müəllimi yaxından tanıyanların ürək sözləri

**Ziyad Səmədzadə,** *Milli Məclisin deputatı, akademik:* - Fərhad müəllimi uzun illərdir ki, professional iqtisadçı kimi tanıyıram. Mühasibat uşotu iqtisad elminin ən mühüm, zəruri sahələrindən biridir. Bu sahədə çalışan insanlar professionallığı, dəqiqliyi, məsuliyyəti ilə fərqlənirlər. SSRİ-nin tərkibində olduğu zaman Azərbaycanda da bu sahənin rolu böyük olmuşdur. Azərbaycan müstəqillik əldə etdikdən sonra iqtisadi həyatın digər sahələrində olduğu kimi, təhsil sistemində də mühasibat uçotunun yeni prinsiplər əsasında qurulması, təşkili ön plana çəkilmişdir. Sevindirici haldır ki, uzun illər tanıdığım Fərhad müəllim də mühasibat uçotu sahəsində fəaliyyət göstərir. Mənim bu insanla tanışlığım 1978-1982-ci illərdə Xalq Təsərrüfatı İnstitutunda elmi işlər üzrə prorektor işlədiyim vaxtlardan başlayıb. Bu insan ilk növbədə səmimiliyi, mehribanlığı ilə seçilirdi. O vaxt nazir Qurban Əliyev idi. Mən tutduğum vəzifə ilə əlaqədar Təhsil Nazirliyində keçirilən tədbirlərdə tez-tez iştirak edirdim. Fərhad müəllimin məsuliyyətli, peşəkar, işə can yandıran insan olduğu mənim diqqətimi o vaxtdan cəlb etmişdi.

Fərhad müəllim bizim "İqtisadiyyat" qəzetinin də, necə deyərlər, dostudur. Uzun illərdir Təhsil Nazirliyi ilə redaksiya arasında bir "körpücük" yaratmış bu insan qəzetimizə elm və təhsil sahəsində baş verən əlamətdar hadicələr barədə məlumat vermiş, maraqlı yazılar hazırlayıb oxuculara təqdim etmişdir.

Onu yubiley münasibətilə təbrik edənlərə biz də qoşulur, Fərhad müəllimə uzun ömür, cansağlığı, işlərində uğurlar diləyirik.

---

**Məsud Əfəndiyev,** *Almaniyada yaşayan riyaziyyatçı alim, professor:* - İngilislərdə belə bir deyim var: "It is nice to be important, but it is more important to be nice". Bu bir cümlədə söhbət INSANIN vacibliyi ilə VACİBLİYİN insanlığı arasında harmoniyadan gedir. Cümlənin əsas məğzi məhz həmin harmoniyanı qoruyub saxlamağın çətinliyi və çox nadir insanların buna nail olmasıdır. Fikrimcə, Fərhad məhz belə bir xüsusiyyətə malik olan şəxsiyyətdir. Fərhadın böyüklüyünü, ziyalılığını, insanlığını və yuxarıda qeyd etdiyim məşhur fəlsəfi fikrin daşıyıcısı olduğunu sübut edən fakt, onun gənc yaslarından Təhsil Nazirliyində məsul vəzifələrdə işləməsinə baxmayaraq, həmişə təvazökarlığını saxlamasıdır. Fərhadı istər iş yerində, istərsə də şəxsi həyatda tanıyanlar onun nə qədər təmiz insan olduğunu yaxşı bilir.

Mənim Fərhadla tanışlığım 1987-ci ilə təsadüf edir. Onunla məni uşaqlıq dostum, həmin illərdə Təhsil Nazirliyində çalışan Nizami Qəhrəmanov tanış etmişdi. İlk tanışlığımızdan bizim aramızda çox böyük ehtiram, hörmət yaranmışdı. İllər keçdikcə isə bu qarşılıqlı ehtiram yüksələn xətlə davam etmiş və bu gün də davam etməkdədir. Fərhad yaxşı dost olmaqla bərabər, həm də ibrətamiz ailə başçısıdır. Mən həmişə onda Azərbaycan ailəsinə xas olan qarşılıqlı hörmətin, izzətin şahidi olmuşam. Əziz dostum Fərhadı 65 illik yubileyi münasibətilə təbrik edirəm. Ona bu şərəfli ömür yolunda cansağlığı, firavan həyat arzulayıram.

---

**Ramiz Hümbətov,** *Bakı Ali Neft Məktəbinin prorektoru, əməkdar elm xadimi:* - Fərhad müəllimlə mənim ilk tanışlığım 1988-ci ilin dekabr ayına təsadüf edir. O vaxt mən Azərbaycan Neft-Kimya İnstitutunun Avtomatika, telemexanika və elektronika kafedrasında dosent vəzifəsində işləyirdim. Rektorluqdan mənə Təhsil Nazirliyinə çağırıldığımı bildirdilər. O vaxt nazirlik Hökumət Evində yerləşirdi. Mən nazirliyə yollandım və 8-ci mərtəbədə lazım olan otağı tapdım, özümü təqdim etdim. Cavan bir oğlan məni qarşıladı və dedi: "Mən Fərhad Əliyevəm, nazirliyin şöbə müdiri. Siz nazirliyin əmri ilə bir komissiyaya sədr təyin edilmisiniz". Bu sözləri dedikdən sonra əmrin surətini mənə təqdim etdi. Əmrə əsasən ali təhsil müəssisələrinin birinin fəaliyyəti kompleks yoxlanmalı idi. Bu neçə ay ərzində həyata keçirilən yoxlama bilavasitə Fərhad Əliyevin nəzarəti altında keçirdi. O müddətdə mən Fərhad müəllimin mühasibat uçotu, iqtisadi məsələlər sahəsində yüksək peşəkarlıq nümayiş etdirdiyinin şahidi oldum. Həmin vaxtdan bu günə kimi müxtəlif yerlərdə və vəzifələrdə işləyərkən yüz dəfələrlə ən geniş çeşidli məsələlərlə Fərhad müəllimə müraciət etmiş, əksər hallarda suallarıma cavab almış və yaxud da məsələnin hansı yolla çözülməsi üçün tövsiyələr əldə etmişəm.

Onunla 1988-ci ildə baş verən tanışlığımız və təsadüfdən qonşuluqda yaşamağımız tez bir zamanda bizi möhkəm ailəvi dosta çevirdi. Fərhad müəllimin yüksək insani xüsusiyyətləri-səmimiliyi, mehribanlığı, başqalarına qarşı həmişə diqqətli olması, qonaqpərvərliyi, səxavətliliyi onun dostluq çevrəsinə çoxsaylı ləyaqətli insanlar cəlb edib.

Uzun illərin dostluğu mənə əsas verir ki, Fərhad müəllimin nümunəvi ailə başçısı olduğunu da təsdiqləyim. Onun ailəsinə, övladlarına, nəvələrinə olan diqqəti, məhəbbəti, qayğısı tükənməzdir.

30 ilə yaxın münasibətlərimizə bir retrospektiv baxış keçirərək mən bu gün fəxrlə qeyd etmək istəyirəm ki, yüksək daxili mədəniyyətə malik, səmimi bir dost, qayğıkeş ailə başçısı, öz işinin peşəkar mütəxəssisi olan, hər bir kəsə kiçiklik etməklə yüksələn Fərhad Əliyev kimi İnsanla qonşuluq və dostluğum taleyin mənə bəxş etdiyi bir hədiyyədir. Mən belə hədiyyəni hər bir insana arzu edərdim!

---

**Aydın Aslanov,** *Fərhad Əliyevin orta məktəb dostu, ehtiyatda olan polis zabiti:* - Deyirlər, bir insan yaxşı düşünmədən deməli deyil ki, mən filankəslə çox yaxşı dostam. Çünki həqiqi dostluğu çoxları bir o qədər də dərindən dərk etmir. Təəssüflər olsun ki, dırnaqarası bir çox dostluqlar keçici mənfəət, təmənna üzərində qurulur. Təmənna bitdikcə isə bu yalançı dostluq münasibətləri də sona yetir. Dostluğu hətta bir ipə də oxşadırlar. Deyirlər ki, dostluq bir ip kimidir. Əgər o ip qırılarsa düyünsüz bağlamaq qeyri-mümkündür. Doğrudan da, həqiqi dostluq bir qırılmaz ip kimi düyünsüz, daim möhkəm olmalıdır. Mənim hazırda 66 yaşım var və bu yaşıma qədər çox insanlarla xoş münasibətdə olmuşam. Lakin o insanların yalnız illərin sınağından çıxmış 2-3 faizi ilə həqiqi dostluq edirəm. Bu gün mənim əsl dostlarım sadə, səmimi, mənəviyyatı yüksək olan insanlardır. Bu dostlarımdan biri də 50 ildən çox dostluq etdiyim, orta məktəbdə sinif yoldaşım olan Fərhad müəllimdir. Bu yerdə rus yazıçısı K.Paustovskinin bir sözü yadıma düşür. O deyirdi ki: "Dünyada yeganə, həqiqi xəzinə yaxşı ürəkdir". Buna görə də bu gün deyə bilərəm ki, Fərhad mənim üçün çox qiymətli, dəyərli bir xəzinədir. Amma xəzinə Fərhad deyil. Fərhad xəzinədir. Fərhad ilə yarım əsrlik dostluğumuz elə bir dostluqdur ki, mən ağlayanda o gülmür, o güləndə mən ağlamıram. Doğrudan da möhkəm qırılmaz ip kimi olan əsl dostluq insanlar arasında münasibətlərin ən uca zirvəsidir.

Bu gün mənim əsl həqiqi dostlarım arasında Fərhad kimi dostumun da olduğuna görə çox xoşbəxtəm və onunla fəxr edirəm.

---

**Rauf Orucov,** *Təhsil Nazirliyinin maliyyə şöbəsinin müdiri:* - Fərhad müəllimlə mən təxminən 2 il bir yerdə çalışmışıq. Bu müddət ərzində onun nə qədər işinə məsuliyyətlə, diqqətlə yanaşdığının şahidi olmuşam. Bundan başqa, Fərhad müəllim öz peşəsinin ən yaxşı mütəxəssislərindəndir. 40 ildən artıq təhsil sahəsində işləyən Fərhad müəllim haqqında həmişə kollektivdən müsbət fikirlər eşitmişəm. Səmimiliyi, dürüstlüyü ilə seçilən Fərhad müəllim istər rəhbərliyin, istərsə də tabeliyində olan şəxslərin daim hörmətini qazanmışdır. Onu bir çoxlarından fərqləndirən xüsusiyyətlərdən biri də yanında çalışan insanlara qarşı daim nəvaziş göstərməsi, öz biliyini onlardan əsirgəməməsidir. Fərhad müəllimin əsas xüsusiyyətlərindən biri də prinsipial olmasıdır. Düşünürəm ki, bu prinsipiallıq onu peşəsinin ən yaxşılarından olmasına səbəb olmuşdur. Fürsətdən istifadə edib Fərhad Əliyevi 65 illik yubileyi ilə əlaqədar təbrik edir, ona həyatda ən şirin nemət olan cansağlığı arzulayıram.

---

**Bayram Hüseynzadə,** *"Azərbaycan müəllimi" qəzetinin baş redaktoru, əməkdar jurnalist:* - Mən Fərhad müəllimlə ilk dəfə Təhsil Nazirliyində işə başlayanda, 1998-ci ildə tanış oldum. Peşə fəaliyyətimlə əlaqədar Nazirliyin bütün idarə və şöbə rəhbərləri ilə tez-tez əlaqə saxlamalı olurdum. Qısa bir zaman ərzində Fərhad müəllimlə aramızda isti bir münasibət yarandı. Sonra bu münasibət öz axarı ilə dostluğa çevrildi. Nazirlikdə işlədiyim illərdə mənimlə dostluq etmək istəyən çoxlu sayda insanlar vardı. Ancaq təəssüf ki, əsl dostlarımı mən yox, zaman özü seçdi. İllərin sınaqlarından cəmi bir neçə dostum üzüağ çıxa bildi ki, bunlardan biri də Fərhad müəllim oldu. Onunla birgə çalışdığım illərdə daim mənə ən doğru bildiyi yolu göstərir, uğurlarıma öz uğuru kimi sevinirdi. Tale elə gətirdi ki, mən gənc yaşlarımdan dövlət qulluğunda çalışmağa başladım. Bu illərdə çox səbrsiz idim, haqsızlığı qəbul edə bilmirdim, rastlaşdığım hər addımda, gördüyüm hər hadisədə sanki bir ədalət axtarışına çıxmışdım. Məhz elə bu hisslərimin təsiri altına düşərək, bəzən kobud səhvlərə də yol verirdim. Kiminsə məsləhətinə daim ehtiyac duyurdum. Amma bəzən məni əhatə edən insanlar arasında "kim"i tapa bilmirdim. Məsləhət verən insanların da çoxu məni öz şəxsi mənafelərinə uyğun istiqamətləndirirdilər. Ancaq Fərhad müəllim az-az adamlardan idi ki, mənə daim doğru bildiyi yolu göstərməyə çalışırdı. Onunla söhbət edəndə sanki problemləri unudub rahatlanırdım. Əlbəttə, Fərhad müəllimin peşə fəaliyyəti haqqında söz söyləmək mənə olduqca çətindir. Düşünürəm ki, peşə ilə bağlı sözü peşəkarlar desə daha yaxşıdır. Mən isə onu yaxından tanıyan biri kimi, demək istəyirəm ki, Fərhad müəllim bu gün zehni, əməli qarışıq və çirkli olan adamlarla dolu bir dünyanın ən saf, ən təmiz, ən dürüst və ən sədaqətli bir insanıdır. Ulu Tanrıdan Sizə cansağlığı, xoşbəxtlik arzulayıram, Fərhad müəllim, Allah Sizi qorusun!

---

**Nazim Kazımov,** *Azərbaycan Milli Konservatoriyasının nəzdindəki Musiqi Kollecinin direktoru, professor:* - Fərhad Əliyevi 25 ilə yaxındır ki, tanıyıram. Mən 1992-ci ildə Təhsil Nazirliyində ilk dəfə fəaliyyətə başlayarkən onunla tanış olmuşam. On il onunla çiyin-çiyinə çalışmışam. Fərhad müəllim işinə çox ciddi yanaşan, hansı vəzifədə olursa-olsun xarakterini, duruşunu dəyişməyən insandır. Fərhad müəllimi daxilən yaxşı tanımayanlar və hətta mən özüm də ilk baxışda onu quru adam bilirdim. Lakin 1998-ci ildə Təhsil Nazirliyində tərbiyə və hərbi hazırlıq idarəsinə rəis müavini təyin olunanda otağımı 7-ci mərtəbədən 8-ci mərtəbəyə dəyişməli oldum (Həmin dövrdə Təhsil Nazirliyi Hökumət Evində yerləşirdi). Fərhad müəllimin də otağı 8-ci mərtəbədə idi və biz onunla otaq qonşusu olduq. Otaq qonşusu olduğumuz üçün artıq Fərhad müəllimlə daha tez-tez görüşürdük. Beləliklə, qısa müddətdən sonra onunla əlaqələrimiz genişləndi və bu əlaqələr böyük bir dostluğa çevrildi. Qısa müddətdən sonra aşkar etdim ki, Fərhad müəllim nə qədər təmiz qəlbli, saf ürəkli, lakin bütün bunlara baxmayaraq daxilini büruzə verməyən insandır. Onun necə gözəl ailə başçısı, dost, işini bilən əla mütəxəssis olduğu mənə yaxşı məlumdur. Mən həmişə onun mühasibatlıq və digər məsələlərlə bağlı məsləhətlərindən faydalanmışam. Vaxtilə Təhsil Nazirliyinin aparatında həmkarların sədri olarkən ona daha çox müraciət edir, məsləhətlər alırdım. Fərhad müəllim kimi insanla dost olduğuma, onu tanıdığıma görə çox şadam. Onu 65 illik yubileyi münasibətilə təbrik edir və uzun ömür, cansağlığı, xoşbəxtlik arzu edirəm.

---

**Vüqar Əsgərov,** *Təhsil Nazirliyinin maliyyə şöbəsinin müdir müavini:* - Fərhad müəllim kimi bir şəxsiyyət haqqında fikir söyləmək məndə həm böyük məsuliyyət, həm də şərəf hissi doğurur. Fərhad müəllimi 14 ildən artıqdır ki, tanıyıram. Bu illərin yarıdan çoxunu Təhsil Nazirliyində birbaşa onun rəhbərliyi altında çalışmışam. Xüsusilə qeyd etmək istəyirəm ki, mənim bir mühasib, mütəxəssis kimi formalaşmağımda Fərhad müəllimin böyük rolu var. Mən onun təcrübəsindən daim yararlanmışam. Heç vaxt o bildiklərini bizdən əsirgəməyib. Fərhad müəllim uzun müddətdir ki, təhsil sistemində çalışır. Mühasibat və maliyyə sahəsində uğurlu fəaliyyət göstərən xeyli sayda mütəxəssislərin yetişməsində onun böyük rolu var. Fərhad müəllim işində düzgünlüyü, nizam-intizamı, dəqiqliyi çox sevən şəxs olduğu kimi, bir o qədər də səmimi, qayğıkeş və diqqətli insandır. Əlbəttə, danılmaz faktdır ki, həyatda əldə etdiyimiz nailiyyətlərimizə görə müəllimlərimizə borcluyuq. Fərhad müəllim də mənim üçün bu qəbildən olan böyük və dəyərli şəxsiyyətlərdən biridir.

Fərhad müəllimi 65 illik yubileyi münasibətilə təbrik edir, ona, ailə üzvlərinə möhkəm cansağlığı, uzun ömür və işlərində yeni-yeni uğurlar arzulayıram.

Səhifəni hazırladı: **Niyazi RƏHİMOV,** *"Azərbaycan müəllimi"*